# Ədəbi irs üzərində dostluq körpüsü

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, ölkəmizin Macarıstandakı səfirliyi, Azərbaycan Milli Kitabxanası və Yunus Əmrə İnstitutunun (Türkiyə) birgə təşkilatçılığı ilə aprelin 24-də Budapeştdə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirilib.

Yunus Əmrə İnstitutunun Budapeştdəki ofisində gerçəkləşən tədbir çərçivəsində Azərbaycan Milli Kitabxanasının fondlarından müxtəlif nəşrlər – Nəsiminin əsərləri və onun haqqında kitabların sərgisi açılıb.

Yunus Əmrə İnstitutunun direktoru Yakub Gül qonaqları salamlayaraq İmadəddin Nəsimi kimi böyük söz ustadının yubiley tədbirinə ev sahibliyi etməkdən böyük şərəf duyduqlarını deyib.

Ölkəmizin Macarıstandakı səfiri Vilayət Quliyev Azərbaycan Prezidentinin müvafiq sərəncamına əsasən respublikamızda və onun hüdudlarından kənarda "Nəsimi ili" çərçivəsində silsilə tədbirlərin keçirildiyini söyləyib. O, Nəsiminin 650 illik yubileyinin Budapeştdə türk dünyasının başqa bir böyük mütəfəkkiri Yunus Əmrənin adını daşıyan institutda keçirilməsinin əlamətdar olduğunu qeyd edərək bildirib ki, burada macar türkoloqlarının iştirak etməsi xalqlarımız arasında dərin köklərə malik əlaqələrin göstəricisidir.

Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev çıxışında diqqətə çatdırıb ki, bu gün Macarıstan kimi Azərbaycana dost olan ölkələrdə Nəsiminin yubileyi ilə əlaqədar çoxlu sayda tədbirlər keçirilir, dahi şairimiz yad edilir. Bu kimi tədbirlər xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, ədəbiyyatlarımızın və ənənələrimizin inteqrasiyasına zəmin yaradır.

Macarıstanın Türkiyədəki keçmiş səfiri, türkoloq Yanoş Hovari də türk dünyasının ortaq mədəniyyətinin və ədəbiyyatının təbliğində belə yubiley tədbirlərinin xarici ölkələrdə keçirilməsinin böyük əhəmiyyət kəsb etdiyinə diqqət çəkib.



Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov qeyd edib ki, hazırda dünya kitabxanaları və muzeylərinin fondlarında, Türkiyədə, İranda, Çexiyada, ABŞ-da, İngiltərədə, Vatikanda, Rusiyada, Avstriya və digər ölkələrdə Nəsiminin əsərlərinin 50-dən artıq əlyazması saxlanılır. Azərbaycan Milli Kitabxanası Mədəniyyət Nazirliyi ilə birlikdə Nəsiminin dünya kitabxanalarında saxlanılan əlyazmalarının elektron surətlərinin toplanması layihəsi üzərində işləyir.

Tədbirin bədii hissəsində "Nəsimi" filmindən fraqmentlər göstərilib, türkiyəli və azərbaycanlı ifaçılar tərəfindən Nəsiminin şeirləri və şeirlərinə yazılmış musiqilər səsləndirilib.

Mədəniyyət qəzetinin xüsusi buraxılışı.- 2019.- iyul. S. 4.